2022-2023-cü tədris ilində peşə təhsili üzrə Dual Təhsil Proqramının əhatə dairəsinin genişləndiriləræk 9 regionda, 15 peşə təhsil müəssisəsində, ümumilikdə 46 qrupda tətbiqi nəzərdə tutulur. Proqrama turizm, ictimai iaşə, kənd təsərrüfatı və sənaye istiqamətində 25 ixtisas üzrə 50-dən çox qabaqcıl işəgötürən müəssisə cəlb olunub.

Dual Təhsil Proqramının tətbiqinin genişləndirilməsində əsas məqsəd müxtəlif sahələrdən olan peşəkarlarla birlikdə təcrübə əsaslı biliklərin tələbələrə ötürülməsi, işəgötürənlərin kadr ehtiyaclarına uyğun mütəxəssislər hazırlanması, istedadlı tələbələrin potensial bilik və bacarıqlarının real iş yerlərində aşkar edilməsidir.

Dual Təhsil proqramı tələbənin tədris ili boyunca peşə təhsili müəssisələrində nəzəri biliklərlə yanaşı, qabaqcıl şirkətlərdə işəgötürənlərlə birgə praktiki bacarıqlar əldə etməsini təmin edən təhsil yanaşmasıdır. Proqram müddətində tələbələr ilk 1 ay müddətində peşə təhsili müəssisəsində nəzəri biliklər əldə edirlər. 2-ci aydan etibarən isə həftədə 3 gün olmaqla peşə təhsili müəssisəsində nəzəri biliklərə, 2 gün ərzində isə iş yerində praktiki bacarıqlara yiyələnirlər. Tədris ilinin aprel ayından başlayaraq praktiki məşğələlərin sayı 5 gün olmaqla davam etdirilir. Kənd təsərrüfatı istiqamətinin bəzi ixtisaslarında tədris fərqli intensivlikdə tətbiq edilə bilər.

Qeyd edək ki, Peşə Təhsili üzrə Dövlət Agentliyi Dual Təhsil Proqramının tətbiqi zamanı müxtəlif istiqamətlər üzrə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMTİP tərəfindən icra edilən “Gələcək üçün Peşə Təhsili və Təlimi: Azərbaycanda Qabaqcıl Peşə Təhsili Mərkəzlərinin yaradılmasına dəstək” layihəsi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Dövlət Turizm Agentliyi, Azərbaycan Hotellər Assosiasiyası və Azərbaycan Turizm Bürosu və Almaniyanın “Bildungswerk der Baden-Württembergischen Wirtschaft e. V.” təşkilatı ilə əməkdaşlıq edir.